# Azərbaycanla Türkiyənin qardaşlıq və dostluq münasibətləri bundan sonra da uğurla inkişaf edəcək



**Milli Məclisin Sədri Sahibə Qafarova fevralın 2-də Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımla görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə iki qardaş ölkə arasında münasibətlərin yüksək səviyyədə inkişafı qeyd edilərək vurğulanıb ki, bu gün dünya miqyasında bir-birinə bu qədər yaxın olan ölkələr yoxdur. Spiker Sahibə Qafarova xüsusilə Azərbaycanın və Türkiyənin dövlət başçıları arasında yüksəksəviyyəli münasibətlərin əməkdaşlığımızın durmadan genişlənməsində mühüm rol oynadığını diqqətə çatdırıb. O əminliyini ifadə edib ki, qardaşlıq və dostluq münasibətlərimiz bundan sonra da uğurlu inkişafını davam etdirəcək.

Milli Məclisin Sədri parlamentlərimiz arasında əlaqələrin də dostluq və qardaşlıq münasibətlərimizin ruhuna uyğun inkişaf etdiyini qeyd edib. Bildirib ki, qanunverici orqanlarımız həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edir. O, deputatlarımızın beynəlxalq platformalardan da uğurlu istifadə edərək bir-birimizin mövqeyinə ardıcıl dəstək göstərdiyini diqqətə çatdırıb. Görüşdə qanunverici orqanlarımız arasında qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti barədə də fikirlər səsləndirilib.

Milli Məclisin Sədri həmçinin hazırda regionda mövcud olan vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirdiyi bərpa və quruculuq işləri haqqında da məlumat verib.

Görüşdə qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 3 fevral.- S.5.